**“Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2028-ci illər üçün Dövlət Proqramı” (Dövlət Proqramı) çərçivəsində xaricdə bakalavr, magistratura və doktorantura üzrə təhsili maliyyələşdirilmiş tələbələrin ölkələr, təhsilinin prioritet sahələri və xərc istiqamətləri üzrə maliyyələşdirilmiş vəsaitlərə dair 30.06.2026-ci il tarixinə olan məlumat**

30.06.2026-ci il tarixinə Dövlət Proqramı çərçivəsində ümumilikdə 1636 nəfər tələbənin təhsili ilə bağlı xərcləri Azərbaycan Respublikası Dövlət Neft Fondu tərəfindən maliyyələşdirilmişdir. Bu tələbələrin 1247 nəfəri magistratura, 371 nəfəri bakalavr və 18 nəfəri doktorantura pilləsində təhsil alır. Eyni zamanda, tələbələrin 22%-i, yəni 359 nəfəri dünyanın ən nüfüzlü 10 ali təhsil müəssisələrində təhsil almaq hüququ qazanmışdır.



• *Bakalavr pillasi üzrə tələbələrin sayı*




**Magistratura tələbələrinin ölkələr üzrə sayı**



## Doktorantura tələbələrinin ölkələr üzrə sayı




## 2022–2028-ci illər üzrə Dövlət Proqramı: Təhsil sahələri üzrə tələbələrin sayı



***Tələbələrin təhsilinin prioritet sahələri üzrə bölgüsü***

Xarici ölkələrin universitetlərində təhsil alan tələbələrin əksər hissəsi İnformasiya texnologiyaları (351 nəfər), Mühəndislik (219 nəfər), Maliyyə (194 nəfər) və İqtisadiyyat (155 nəfər) ixtisasları sahələrində təhsil alırlar. Bu 4 prioritet ixtisas sahəsində təhsil alan tələbələr ümumi proqram iştirakçılarının 56.2%-ini təşkil edir.

***Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2028-ci illər üçün Dövlət Proqramı (30.06.2026)***




2022–2028-ci illər üçün Dövlət Proqramı Azərbaycan gənclərinin yüksək keyfiyyətli təhsil almalarına şərait yaradaraq, ölkənin intellektual potensialının artırılmasına və müxtəlif sahələrdə peşəkar kadrların yetişdirilməsinə əhəmiyyətli töhfə verir. Hal-hazırda 610 nəfər tələbə təhsilini müvəffəqiyyətlə başa vurub məzun adını qazamışdır.

## Dövlət Proqramı məzunlarının təhsil aldıqları ölkələr üzrə bölgüsü

